Ədalət .- 2025.- 11 aprel(№13).-S.8.

# Gözlərin söhbəti

## O söhbət həm də ümiddi

**Hər dəfə xatirələrin qapısını döyəndə özümdən asılı olmadan gəlib durursan gözümün önündə. Və gözlərimiz bir-biri ilə o qədər mehriban hal-əhval tutur ki, mən onu sözə çevirə bilmirəm. Və inanmıram ki, gözlərin söhbətini kimsə də kağıza köçürə bilsin. Məni qınamayın. Və əllaməçi də hesab etməyin. Düşünməyin ki, bu, pafoslu bir yanaşmadır. Xeyr! Əslində bu, gerçəyin mənim tərəfimdən etirafıdı. Elə bir etiraf ki, onun şahidi Allahdır!..**

Bəli, həyatım o qədər suallar, o qədər problemlər içərisindən keçib ki, o sualları, o problemləri kağıza ardıcıl, yəni sıra ilə yazsam bəlkə də qalın bir kitab alınar. Həmin o sualların, problemlərin içərisində gündəlik qayğılar da var, hamının yaşadığı və ümumi olan nəsnələrdə var. Və mən də onları bir-birindən seçmədən, ayırmadan vaxtına, baş vermə şəraitinə görə sıralamışam. Üstəlik, bu sıralamada həmişə ön sırada, yəni birinci yerdə gözlərimizin söhbətini görmüşəm. İnan ki, xatırlayanda da, şəklinə baxanda da, qarşılaşanda da. O söhbətlərin mətnində həmişə yenilik olub, həmişə yil. Elə bilməyin ki, indi hamı arifdi. Bir işarə ilə nə dediyini, nə istədiyini duyacaq. Ən azından münasibət bildirəcək. Təəssüf ki, mən yaşadıqlarımı, daha doğrusu, sənin mənə yaşatdıqlarını Allahdan başqa kimsəyə deməmişəm, demirəm və deməyəcəm də. Elə burda yenə təkrar edim ki, bütün bunların şahidi də elə Allahın özüdür. İçimdəki duyğuların da, sevginin də, onun şeirə çevrilməsinin də müəllifi, dəstək vərəni, hamisi olan Allah hər bir anda özü ilə birlikdə səni də xatırladır və sən kənara çəkilməyə, laqeydlik göstərməyə israrlı olduqca mən də Allahıma güvənib öz duyğularımda israrlı olaraq qalıram. Demək istəyirəm ki, ömür anlardan, günlərdən, ümumiyyətlə, təqvimdən ibarət deyil. Mənə görə ömür həm də yaşadığım duyğulardan, içimdə olduğun hisslərdən təşkil olunub, cilalanıb, adam içinə çıxarılıbdır. Bu, müəyyən mənada təsəllidi, müəyyən mənada isə ürəyinin haqqı, həm də boynunda olan məsuliyyətdi. Ürəyin dilə dedirtdiyini ürəyə də Allah dedirdir. Bu əlaqə o vaxt qırıla bilər ki, ürək dayansın! Amma dil lal olsa da, onun əvəzinə danışan var. Onun əvəzinə fikirləri çatdıran var, o da gözlərdir. Yoluna, gözünə baxan gözlər.



təzə-tər olub. Lap açığını desəm, o söhbətlər hər dəfə ilk təmasın, ilk qarşılaşmanın, ilk pıçıltıların özünü ifadə edibdir. Sanki bir-birini indicə görüblər, indicə qarşılaşıblar və ...

Heç bir hadisə insan ömründən izsiz, cizgisiz, nişanəsiz ötüb keçmir. Mütləq nəsə qalır. O nəsə ya adamı ağrıdır, ya da həvəsləndirir, ümid verir. Ona görə də mən öz həyatımda, ömrümdə izini, nişanəsini həkk edən həmin o hadisələrin qiymətini də, çəkisini də, ölçüsünü də, bir sözlə, dəyərini də nə unutmuram, nə də dilə gətirmirəm. Çünki onun da şahidi Allahdır. Allahın şahidi olduğu məqamlara isə səni şahid kimi gətirmirəm, göstərmirəm. Bundan incimə. Çünki ən böyük və ən ədalətli şahidin olduğu yerdə biz kimik ki?!

İndi özüm-özümdən küsmüş, incimiş, yerimdə olmadığımı və bəlkə də artıq göründüyümə münasibəti sərgiləyən ştrixlər diqqətimi çəkir. Elə bil ki, təkcə sənin gözündə deyil, elə dünyanın özündə də artıqlıq yaradıram. Və yaxud var olmağım sənə əlavə bir problem yaradır... Bax, elə bir anlaşılmaz və yaxud da anlaşıldığı kimi də qəbul edilməyən bir reallıq tutub yaxamdan. Mən doğrudanmı bu dünyada artıqam və bir də mən doğurdanmı sənin əl-ayağına dolaşıram, həyatında problemə çevrilirəm?

Suallar sadə, lakin cavabı ləngiyən, ya da loyal cavablandırılan suallardır. Necə deyərlər, bir növ yola vermək, gerçəkdə isə əgər sual yaranıbsa, o sual cavabını da gözləyir. Bəlkə gecikdirməyəsən cavabı. Axı:

***Bir yaşıma baxdım, bir də başıma,***
***Olmamışdı səndən belə küsməyim...***
***Su calandı bir qaşıqlıq aşıma -***
***Səbəbi də, səbir telin kəsməyim...***
***Davrandıqca dəli kimi - havalı,***
***Durduğum yer hər vaxt oldu davalı...***
***Dərd əlindən yerə qoydu qavalı -***
***Xoş gəlmədi ona, belə gəzməyim!***
***Çox axtardım qəm-kədərin vəzrini,***
***Duya-duya gilavarı, xəzrini!.***
***Başa vurub Əbülfətin əsrini -***
***Bildim, keçdi külək olub əsməyim!..***

***

Yəqin könlündə, ruhunda müəyyən bir həssaslıq, müəyyən bir maqnit gücü olan adamlar məni anlayarlar. Bilərlər ki, ifadə edilən, dilə gətirilən hisslər artıq elə bir nöqtəyə gəlib çatıb ki, onu deməmək, onu yazmamaq mümkün deyil. Bilmirəm, nə vaxt yazmışam, yəni tarixini xatırlamasam da, indi yadıma düşdü. Bir vaxtlar pıçıldamışdım ki:

***Gözlərini gözlərimdən gizləmə,***
***Gözətçidir gözlərinə gözlərim.***
***Gözlərimdən gəzəntəlik gözləmə,***
***Gözümdədi, gəzdirdiyim gözlərim!***

Bütün hallarda o pıçıltılar da, o söhbətlər də dünyanın özü kimidi. Öz oxu ətrafında fırlanır. Şamın özü kimidi, pərvanəsi başına dolanır. Sevginin özü kimidi, Məcnunluq halını aşıb keçir...

Bütün bunlar hardasa həyat səhnəsinin ən maraqlı, ən yaddaqalan, həm də ən düşündürücü tamaşasıdı. O tamaşanın aktyorları çevrəmizdi, bizə münasibətləri olanlardı və bir də biz özümüzük. Neynəyim ki, çevrəmizdekilər kimi biz özümüz də hərdən öz rolumuzu elə-belə nəyinsə xatirinə, hətta süni bir şəkildə ifa edirik. Bununla təkcə özümüzə deyil, sevgimizə də zərbə vurmuş oluruq. Bədəlini ödəyəcəyimiz zərbənin ağrısı, acısı, yəqin ki, qurudacaq, donduracaq, məhv edəcək bizi.

***Nişangah edib, sorğusuz -***
***Atılan güllə sinəmi.***
***İstəsən belə qorxusuz -***
***Saralmış güllə, sinəmi!***
***Dursan da ömrün qəsdinə,***
***Sığına bildim istinə!..***
***Əlini qoyub üstünə -***
***Sən ağla, dillə sinəmi!***
***Üstümdən çəkilən xətti,***
***Saymadım ki, mən Çin səddi!***
***Gördüm dostluğun da vəddi -***
***Vur, qanat, millə, sinəmi!***
***Özüm haqq etdiyim haldı,***
***Dilim dönmür deyəm "baldı!"***
***Bir az ayaq altda qaldı -***
***Yudular lillə, sinəmi!***

***

Bəli, mən təkcə xatirələrimin, xəyallarımın deyil, həm də bir-biri ilə danışan gözlərin, eləcə də gözlərimizin pıçıltılarını təkrarladım. Özüm-özümə bir növ yaddaş dərsi keçdim. Nəyi unudub, nəyi unutmadığımı öyrənmək üçün və ən vacibi bu an sənin gözlərinin mənim gözlərimə dediklərini ruhən eşitmək üçün. Axı, gözlərinin səsi elə gözlərinin özü kimi də gözəldi. O, bir az laləyə bənzəyir, bir az muğama, bir az da adamı yaşamağa çağırış edən bayatıya. Bilmirəm, sən mənimlə razılaşdın ya yox, ümumiyyətlə, bu söhbət səni yordu, yoxsa yox. Ən yaxşı halda (bu mənim özüm üçün çıxartdığım qərardı - Ə.M.) gözlərinin səsini eşitdim. Deməli, o səs bir gün sənə də məni xatırladacaq. Və bir gün sən o səsin ÜMİD olduğuna inanacaqsan. Gözlərin söhbətindən doğan ümid. Deməli, hələ hər şey bitməyib, deməli, hələ yaşamaq və mücadilə etmək lazımdır.

**Əbülfət Mədətoğlu**